# Azərbaycan Cənubi Qafqazın sabitliyinin əsas təminatçısıdır

Sabitliyin ən böyük şərtlərindən biri ölkədə həyata keçirilən siyasətdir. Prezident İlham Əliyevin də qeyd etdiyi kimi, sabitliyin təminatçısı Azərbaycan xalqı və dövlətin siyasətidir. Müstəqilliyimizin ilk illərində Azərbaycanda hökm sürən dərin hərbi-siyasi böhran, anarxiya və xaos orta və yaşlı nəslin xatirindədir. Yalnız Ulu Öndər Heydər Əliyevin siyasi hakimiyyətə gəlişindən sonra siyasi-ictimai sabitlik təmin edildi, dövlətə, xalqa və cəmiyyətə təhdidlər yaradan qanunsuz əməllərə son qoyuldu. Məhz Heydər Əliyevin sayəsində cəmiyyətdə qanunçuluq təmin edildi.

Prezident İlham Əliyevin rəhbərliyi dövründə isə respublikamızın sabitliyi daha da möhkəmlənib və sarsılmaz olub. Azərbaycan cinayətkarlığın səviyyəsi baxımından nəinki MDB məkanında, hətta Avropanın inkişaf etmiş ölkələri ilə müqayisədə təhlükəsiz və sabit dövlətlərdən biri sayılır. Ölkəmizdə milli, etnik və dini baxımdan hansısa gərginliyin yaranması, ümumiyyətlə, mümkün deyil. Bunun da əsas səbəbləri Azərbaycan rəhbərliyinin yürütdüyü müdrik siyasət, xalqımızın bu siyasət ətrafında sıx səfərbər olması və milli həmrəyliyidir.

→ 4

# Azərbaycan Cənubi Qafqazın sabitliyinin əsas təminatçısıdır

Planetimizin mənzərəsi olduqca mürəkkəb, ziddiyyətli və təzadlıdır. Bu sırada diqqəti çəkən məqamlardan biri odur ki, xüsusən hərbi və siyasi kataklizmlər nəinki səngiyir, əksinə daha da çoxalır. Başa çatan bir müharibədən və ya münaqişədən sonra başqaları yaranır. Dövlətlərin və insanların faciələrinin davam etməsi müasir dünyamızın ən aktual problemlərindən biri kimi özünü göstərməkdədir.



**İlham ƏLİYEV: "Azərbaycanda sabitliyin təminatçısı Azərbaycan xalqıdır və bizim siyasətimizdir"**

Beləliklə müxtəlif böhranların və gərginliklərin səngimədiyi müasir dünyamızda sabitliyi təmin etmək, inkişafa nail olmaq, nailiyyətlər qazanmaq heç də hər ölkəyə nəsib olmur. Elə Azərbaycana nisbətən yaxın olan bəzi coğrafiyalarda da mürəkkəb hərbi-siyasi konyunktura müşahidə edilir. Bəzi ölkələr müharibələrin, daxili münaqişələrin, etnik, dini qarşıdurmaların və terrorçuluğun fəsadlarndan, bəziləri isə bitməyən siyasi çəkişmələrdən əziyyət çəkirlər. Bütün bunlarla yanaşı, texnoloji inkişafın yaratdığı imkanlardan yararlanaraq son illərdə daha da güclənən kibercinayətkarlıq qlobal təhlükə kimi bütün dövlətləri təhdid etməkdədir.

Beynəlxalq miqyasda özünü göstərən belə gərgin şəraitdə Azərbaycanda sabitliyin hökm sürməsi dövlətimizin və xalqımızın ən böyük uğurlarından biridir. Respublikamızın əldə etdiyi bütün nailiyyətlərin kökündə dayanan əsas amillərdən biri də məhz sabitlikdir.

Prezident İlham Əliyevin qeyd etdiyi kimi, Azərbaycan dünya miqyasında sabitlik məkanı, sabitlik adası kimi tanınır: "Biz görürük ki, sabitlik pozulanda inkişafdan söhbət gedə bilməz. Sabitlik pozulanda xarici müdaxilə baş verir, ölkələr idarəolunmaz vəziyyətə düşür, qardaş qanı tökülür və ölkələrin gələcəyi böyük sual altına düşür. Azərbaycanda sabitliyin təminatçısı Azərbaycan xalqıdır və bizim siyasətimizdir. Ona görə xalq-iqtidar birliyi bizim uğurlarımızın əsas şərtidir. Azərbaycan bu gün dünya miqyasında sabitlik məkanı, sabitlik adası kimi tanınır və bu, bizim böyük nailiyyətimizdir".

**Heç bir qüvvə sabitliyimizə təhdid yarada bilməz**

Əlbəttə ki, sabitliyin ən böyük şərtlərindən biri ölkədə həyata keçirilən siyasətdir. Prezident İlham Əliyevin də qeyd etdiyi kimi, sabitliyin təminatçısı Azərbaycan xalqı və dövlətin siyasətidir. Müstəqilliyimizin ilk illərində Azərbaycanda hökm sürən dərin hərbi-siyasi böhran, anarxiya və xaos orta və yaşlı nəslin xatirindədir. Yalnız Ulu Öndər Heydər Əliyevin siyasi hakimiyyətə gəlişindən sonra siyasi-ictimai sabitlik təmin edildi, dövlətə, xalqa və cəmiyyətə təhdidlər yaradan qanunsuz əməllərə son qoyuldu. Məhz Heydər Əliyevin sayəsində cəmiyyətdə qanunçuluq təmin edildi.

Prezident İlham Əliyevin rəhbərliyi dövründə isə respublikamızın sabitliyi daha da möhkəmlənib və sarsılmaz olub. Azərbaycan cinayətkarlığın səviyyəsi baxımından nəinki MDB məkanında, hətta Avropanın inkişaf etmiş ölkələri ilə müqayisədə təhlükəsiz və sabit dövlətlərdən biri sayılır. Ölkəmizdə milli, etnik və dini baxımdan hansısa gərginliyin yaranması, ümumiyyətlə, mümkün deyil. Bunun da əsas səbəbləri Azərbaycan rəhbərliyinin yürütdüyü müdrik siyasət, xalqımızın bu siyasət ətrafında sıx səfərbər olması və milli həmrəyliyidir.

Azərbaycanın qüdrətini artıran amillərlərdən biri məhz sabitlikdir. Sabitliyin və milli birliyin ən böyük göstəricilərindən biri də Vətən müharibəsində torpaqlarımızın işğaldan azad edilməsi oldu. Və təsadüfi deyil ki, sabitliyi ilə dünyada seçilən Azərbaycan tarixinin ən qüdrətli dövlətinə çevrilib.

Azərbaycanın sabitliyi beynəlxalq səviyyədə də yüksək dəyərləndirilir. Bu sabitliyin nəticəsidir ki, ölkəmiz bu gün xarici investorların ən çox maraq göstərdiyi dövlətlərdəndir. O cümlədən ölkəmizi xaricilər üçün cəlbedici edən məsələlərdən biri sabitlikdir. Bakının bir neçə il əvvəl Rusiya ilə ABŞ və NATO arasında danışıqlara evsahibliyi etməsi də məhz bundan irəli gəlirdi.

Azərbaycan həm də Cənubi Qafqazın sabitliyinin əsas təminatçısı, qlobal səviyyədə təhlükəsizliyə töhfə verən dövlətdir. Bu günlərdə Rusiya Federasiyası Təhlükəsizlik Şurasının katibi Sergey Şoyqunu qəbul edən Prezident İlham Əliyev Azərbaycan-Rusiya münasibətlərinin bəzi qonşu dövlətlər üçün də bir nümunə olduğunu deyərək, bunu Cənubi Qafqazda və daha geniş məkanda mühüm təhlükəsizlik faktoru kimi dəyərləndirdi.

Azərbaycan öz yüksəlişinin elə bir səviyyəsinə çatıb ki, heç bir qüvvə bu sabitliyə təhdid yarada bilməz. Heç bir terror təşkilatı ölkəmizdə öz niyyətini gerçəkləşdirə bilməz. Bütün bunlar isə dünyaya sabitliyin Azərbaycan nümunəsini təqdim edir. Eyni zamanda sarsılmaz sabitlik Azərbaycanın yüksək qlobal imicinin formalaşmasına təsir edən əsas amillərdəndir.

***Rəşad CƏFƏRLİ, "Azərbaycan"***